*Qədim Diyar Beynəlxalq Elmi Jurnal.* İyun 2026, Cild: 8, Sayı: 6, s. 237‒242
*Ancient Land International Scientific Journal.* June 2026, Volume: 8, Issue: 6, pp. 237‒242
DOI: https://doi.org/10.36719/2706-6185/61/237-242

# "Qafqaz təqvimi"nin tarixi-demoqrafik mənbə kimi xüsusiyyətləri

**Səidə Quliyeva**

***Xülasə.*** *Tədqiqat işində "Qafqaz təqvimi" ("Kavkazskiy kalendar") külliyyatı tarixi-demoqrafik mənbə olaraq təhlil edilir və xüsusiyyətləri araşdırılır. Məqalədə dünya təcrübəsi ilə müqayisəli paralellər aparılaraq, demoqrafik məlumatların dövlət idarəçiliyi və elmi tədqiqatlarda rolu əsaslandırılır. Tədqiqatın əsas obyekti olan "Qafqaz təqvimi"nin materialları əhalinin sayı, etnik-dini tərkibi, kənd-şəhər nisbəti və təbii hərəkəti baxımından təhlil edilir. Təqvimdə əks olunan statistik cədvəllərin və imperiya dövründə keçirilən kameral təsvirlərin regionun etno-demoqrafik xəritəsinin bərpasındakı əhəmiyyəti önə çəkilir. Müəllif, mənbənin metodoloji məhdudiyyətlərini (inzibati dəyişikliklər, məmur qərəzliliyi və s.) qeyd etməklə yanaşı, bu külliyyatın Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalından sonra baş verən prosesləri izləmək üçün mühüm əhəmiyyəti olduğunu sübut edir. Tədqiqat tarixi sənədlərin elmi təhlili vasitəsilə qlobal dayanıqlı inkişaf hədəflərinin icrasına, xüsusilə dayanıqlı məskunlaşma və tarixi ədalətin bərpasına elmi töhfə verir. XIX əsrin ortalarından XX əsrin əvvəllərinə qədər olan dövrü əhatə edən "Qafqaz təqvimi" külliyyatı regionun demoqrafik, inzibati və sosial-iqtisadi tarixini izləmək üçün mötəbər statistik mənbə kimi əhəmiyyətlidir.*

***Açar sözlər:*** *tarixi-demoqrafik mənbələr, "Qafqaz təqvimi", siyahıyaalma, Rusiya imperiyası, Azərbaycan, dayanıqlı məskunlaşma, tarixi ədalət*

---

Bakı Dövlət Universiteti, tarix üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
E-poçt: saidaquliyeva@bsu.edu.az
Daxil oldu: 29 Yanvar 2026; Qəbul edildi: 30 Aprel 2026; Onlayn dərc edildi: 28 İyun 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BYNC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# Characteristics of the "Caucasus Calendar" as a Historical-Demographic Source

**Saida Guliyeva**

***Abstract.*** *This research analyzes the "Caucasus Calendar" ("Kavkazskiy Kalendar") series as a historical-demographic source and explores its unique characteristics. By drawing comparative parallels with global practices, the study substantiates the role of demographic data in state administration and scientific research. The materials of the Caucasus Calendar, which constitutes the primary object of this research, are analyzed in terms of population size, ethno-religious composition, rural-urban ratios, and natural population growth. The importance of the statistical tables and the cameral surveys conducted during the imperial period in reconstructing the ethno-demographic map of the region is highlighted. While noting the methodological limitations of the source, the author demonstrates the crucial significance of this collection for tracking the processes following the Russian occupation of Azerbaijan. Through the scientific analysis of historical records,*

*the study contributes to the implementation of global sustainable development goals, specifically in terms of sustainable settlement and the restoration of historical justice. The "Caucasian Calendar" collection, which covers the period from the mid-19th to the early 20th centuries, is important as a reliable statistical source for tracing the demographic, administrative, and socio-economic history of the region.*

***Keywords:*** *"Caucasus Calendar", historical demography sources, census records, Russian Empire, Azerbaijan, sustainable settlement, historical justice*

---

Baku State University, PhD in History, Baku, Azerbaijan
E-mail: saidaquliyeva@bsu.edu.az
Received: 29 January 2026; Accepted: 30 April 2026; Published online: 28 June 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Tarixi-demoqrafiya bəşəriyyətin müxtəlif inkişaf mərhələlərində əhalinin məskunlaşmasını, etnik tərkibini, struktur dəyişikliklərini və dinamikasını tədqiq edən strateji bir elm sahəsidir. Bu sahə keçmiş cəmiyyətlərin sosial-iqtisadi mənzərəsini bərpa etməklə yanaşı, müasir dövrün planlaşdırılması üçün də fundamental elmi baza rolunu oynayır. Azərbaycan Respublikasında dövlətin demoqrafiya siyasəti qanunvericilik sənədləri əsasında tənzimlənir. Azərbaycan Respublikasının Prezidenti, görkəmli dövlət xadimi Heydər Əliyev (1993-2003) tərəfindən 1999-cu ildə qəbul edilmiş "Demoqrafik İnkişaf Konsepsiyası" dövlət siyasətinin həyata keçirilməsi üçün tarixi tədqiqatları zəruri edir (Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası, 1999, s. 2921-2927).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AMEA-nın 80 illik yubiley nitqində Azərbaycan tarix elmi qarşısında müəyyən etdiyi vəzifələrin icrası bizə regionda tarixi məskunlaşmanın qəsdən pozulmasını və etno-demoqrafik strukturun dəyişdirilməsi cəhdlərini dəqiq əks etdirən mənbələrin müqayisəli analizini zəruri edir (Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağı keçirilib, 03 noyabr 2025). Yuxarıda göstərilənləri əsas götürərək, Rusiya imperiyasının Qafqazı işğalından başalayaraq müasir dövrədək baş vermiş tarixi-demoqrafik prosesləri "Qafqaz təqvimi"nin materialları əsasında elmi-nəzəri baxımdan tədqiq etmək zəruridir. Belə ki, XIX əsrin ortalarından XX əsrin əvvəllərinə qədər olan dövrü əhatə edən "Qafqaz təqvimi" (Kavkazskiy kalendar) külliyyatı regionun demoqrafik, inzibati və sosial-iqtisadi tarixini izləmək üçün mötəbər statistik mənbə kimi çıxış edir. Bu səbəbdən də tədqiqatın əsas məqsədi, "Qafqaz təqvimi"nin təqdim etdiyi zəngin məlumat bazasını tarixi-demoqrafik baxımdan təhlil etmək, regionun tarixi-demoqrafik mənzərəsini bərpa etmək üçün materialları müəyyən etmək və mənbənin elmi əhəmiyyətini metodolojitəsvir etməkdir.

## Tədqiqat

Rusiya imperiyası ərazisində ilk siyahıyaalma 1897-ci ilə aid olsa da, "Qafqaz təqvimi"ndə əks olunan müxtəlif məlumatlar Azərbaycan tarix elmi üçün əhəmiyyət kəsb edir. Belə ki, külliyyat regionda tarixi ədalətin statistik sübutu və regionun gələcək dayanıqlı məskunlaşma strategiyalarının tarixi-demoqrafik mənbələr əsasında möhkəmləndirilməsi üçün fundamental elmi baza yaradılmasına imkan verir.

## 1. Tarixi-demoqrafik mənbələr

Məlumdur ki, tarixi tədqiqatların əsası mənbələrdir. Mövzumuza uyğun olaraq haqqında bəhs olunan tarixi-demoqrafik mənbələr tətbiqi tədqiqat aparmağa imkan verir. Tarixən əhalinin məskunlaşması, sayı, məşğulluğu barədə məlumatlar həm dövlətlərin, həm də alimlərin diqqətində olmuşdur (Şükürov, 2001, s. 5-8, 19-263, 320-354). Dünya təcrübəsində demoqrafik mənbələr (əhali siyahıya almaları, əhali qeydləri və s.) fərqli coğrafiyalarda özünəməxsus yollarla inkişaf etmişdir. Bu materiallar sosial-iqtisadi planlaşdırma üçün əsaslı bir zəmin yaratmışdır. İlk əhali qeydləri əsasən vergi ilə əlaqədar olmuşdur. Qədim Misirdə və Roma imperiyasında qeydiyyat daha sistemli təşkil edilirdi (Haqverdi, 2026, s. 265-272). Şərq ölkələrində bu ənənə daha qədim köklərə malikdir. Sonrakı dövrlərdə Ərəb xilafətindən başlayaraq Osmanlı imperiyası dövrü daxil olmaqla geniş coğrafiyada davam etdirilmişdir. Osmanlı imperiyasında XV-XVII əsrlərdə hazırlanan təhrir dəftərləri isə yalnız əhalinin sayını deyil, torpaq mülkiyyəti, sosial təbəqələşmə və iqtisadi fəaliyyəti də əks etdirən çoxsahəli mənbələrdir. Avropada bu sahənin kökləri XVI əsrə uzanır. Fransa və İngiltərədə kilsə qeydiyyat kitabları və rəsmi dövlət siyahıyaalmaları – kilsə tərəfindən aparılan doğum, ölüm, nikah qeydləri, torpaq formaları və digər məlumatları o dövr üçün sistemli bir uçot ənənəsinin başlanğıcı sayılır. Rəsmi dövlət siyahıyaalmalarının keçirilməsi demoqrafik məlumatların toplanmasını daha geniş və rəqəmsal bir müstəviyə daşıdı. Amerika və Afrikada isə mənbə bazası əsasən müstəmləkəçilik dövründən sonra rəsmi bir şəkil aldı. Rəsmi və mötəbər mənbələrə əlavə olaraq şifahi tarix və səyyah gündəlikləri də demoqrafik məlumat verir.

XIX-XX əsrlərdə baş verən siyasi proseslərlə əlaqədar Azərbaycan tarixinə aid mənbələr artmağa, hətta yeni tipli mənbələr yaranmağa başlamışdır. Onların sırasında qanunvericilik aktlarını, kargüzarlıq sənədlərini, iqtisadi və demoqrafik məlumatların əks olunduğu statistik mənbələri, dövri mətbuatı qeyd edə bilərik.Rusiya imperiyası dövrünə aid kameral təsvirlər, 1886-cı il ailə siyahıya almaları, müxtəlif hərbi, etnoqrafik, statistik mənbələr, siyahıyaalma materialları XIX-XX əsrin əvvəllərinin demoqrafik mənzərəsini ortaya qoymaq üçün əsas mənbə qrupunu təşkil edir (Shukyurov, 2023, s. 164). Məlumdur ki, Türkmənçay müqaviləsindən (1828) sonra imperiyanın Qafqazda həyata keçirdiyi siyasət təkcə əhalinin məskunlaşmasına və etnik tərkibinə təsir etməmiş, həm də yeni yaşayış məskənlərinin salınmasına, həmçinin toponimikada dəyişiklərə səbəb olmuşdur. Bu mənbələr vasitəsilə regionun yerli sakinlərinin yaşayış areallarını, ailə tərkibini və məşğulluq sahələrini müəyyənləşdirmək mümkündür.

Tarixi-demoqrafik mənbələrin müqayisəli təhlili yalnız keçmişi yenidən canlandırmır; eyni zamanda dövlətin gələcək inkişaf yolunu, əhalinin davamlılığını və sosial rifahını elmi zəmində proqnozlaşdırmağa xidmət edir. Rəqəmsal texnologiyaların bu tədqiqatlara tətbiqi isə insan cəmiyyətlərinin tarixinə dair daha dəqiq mənzərə yaratmağa imkan verir, bu da milli və beynəlxalq səviyyədə tarixi həqiqətlərin müdafiəsində həlledici bir rol oynayır.

## 2. Qafqaz təqviminin tarixi-demoqrafik mənbə kimi xüsusiyyətləri

Qafqaz, xüsusilə Azərbaycan barədə bir çox sahəyə aid materialların əks olunduğu əsas külliyyatlardan biri "Qafqaz təqvimi"dir. Külliyyat XIX əsrin ortalarından XX əsrin əvvəllərinə qədər uzanan dövr üçün Qafqaz regionunun əhali tərkibini, inzibati bölgüsünü, təsərrüfat və sosial-iqtisadi vəziyyətini ardıcıl şəkildə əks etdirən ən qiymətli statistik mənbələrdən biridir. Rusiya imperiyasının Qafqaz Canişininin Baş İdarəsinin nəzdində hazırlanan bu illik nəşr, Qafqaz canişini M.S.Voronsovun göstərişi ilə 1845-ci ildə təsis edilmiş, ilk nömrəsi isə Zaqafqaziya diyarı Baş İdarəsinin mətbəəsində çap olunmuşdur. İlk üç nömrənin redaktoru Voronsovun məsləhətçisi Nikolay İvanoviç Loran olmuşdur. Nəşrin yaranmasında isə 1831-ci ildə Odessada yayımlanan "Novorossiyskiy təqvim" nümunə götürülmüşdür (Luçinskiy, 2019, s. 64-66; Kavkazskiy kalendar na 1846 god, 1845). 1845-1916-cı illər arasında 74 cilddə dərc edilən bu külliyyat, təxminən yetmiş illik bir dövr üzrə baş verən dəyişiklikləri izləməyə imkan yaradır.

Təqvimdən istifadə edərkən diqqət yetirilməli olan vacib məsələ onun yayınlama ili və aid olduğu ilin fərqli olmasıdır. Belə ki, məsələn, 1916-cı ildə yayımlanan təqvim 1917-ci il üçün nəşr edilmişdir. Materiallar da əsasən 1916-cı ilə aiddir.

Mənbənin tarixi-demoqrafik tədqiqatlar baxımından birinci mühüm xüsusiyyəti onun ardıcıllığı və sistemliliyidir. Mənbədə əhalinin sayı, etnik tərkib, dini mənsubiyyət, kənd-şəhər nisbəti və təsərrüfatların sayı kimi göstəricilər ilbəil qeydə alındığından, digər arxiv materiallarında nadir hallarda rastlanan geniş həcmli statistik baza formalaşmışdır. Bu ardıcıllığın arxasında isə ciddi bir məlumat toplama mexanizmi dayanır. Məsələn, 1851-ci ildə yaradılan Rusiya Coğrafiya Cəmiyyətinin Qafqaz Şöbəsi — birbaşa Qafqaz canişininin himayəsi altında fəaliyyət göstərərək — regionun coğrafi, etnoqrafik və statistik cəhətdən öyrənilməsinə yönəlmiş tədqiqatlar aparmış, toplanmış materialların bir hissəsi "Qafqaz təqvimi"ndə nəşr üçün göndərilmişdir.

Mənbənin ikinci mühüm xüsusiyyəti regionun etnodemoqrafik xəritəsini yenidən qurmağa imkan verməsidir. Bu işdə xüsusi rol oynamış şəxslərdən biri 1860-cı ildən Qafqaz Hərbi Dairəsinin Topoqrafiya Şöbəsində çalışan İeronim Stebnitskidir. O, 1858-ci ilin reviziya materiallarına və kameral təsvirlərə əsaslanaraq Qafqaz əhalisinin etnik və dini tərkibini əks etdirən ilk statistik cədvəlləri hazırlamış, həmin materiallar “Qafqaz təqvimi”nin 1865-ci il buraxılışında dərc olunmuşdur (Kavkazskiy kalendar na 1865 god, 1864).

Üçüncü xüsusiyyəti mənbənin çoxsahəli məlumat tutumudur. “Qafqaz təqvimi” yalnız növbəti ilin təqvimi kimi yayımlanmamış, həm də iqtisadi tarix, sosial tarix, tarixi-demoqrafiya, coğrafiya və miqrasiya istiqamətlərində tədqiqatlara da mənbə olmuşdur. Hər cilddə inzibati idarələr, dövlət qulluqçuları, yollar, reklamlar və digər məlumatlarla yanaşı tarixi və etnoqrafik mətnlər, inzibati, hərbi və statistik materiallar, Qafqazın məşhur şəxsiyyətləri haqqında məlumatlar, XIX əsr Qafqaz müharibələrinin iştirakçılarının xatirələri yer almışdır. Bunlarla yanaşı, kənd təsərrüfatı, faydalı bitkilər, təhsil və urbanizasiya sahələrinə aid məlumatlar da külliyyatın bir hissəsini təşkil edir.

Külliyyatdan tarixi-demoqrafik mənbə kimi əsasən 1852, 1854, 1865, 1879,1886, 1890, 1891, 1892, 1897, 1900 və 1916-cı illərə aid cildlərə diqqət yetirmək vacibdir. Daha dolğun məlumatlar 1886-cı ildə həyata keçirilmiş ailə siyahıyaalmaları (“Posemeynıe spiski”) və 1897-ci il Ümumrusiya əhali siyahıyaalınması məlumatlarını əks etdirən cildlərdə əks olunmuşdur (Kavkazskiy kalendar na 1852 god, 1851; Kavkazskiy kalendar na 1855 god, 1854; Kavkazskiy kalendar na 1865 god, 1864; Kavkazskiy kalendar na 1886 god, 1885; Kavkazskiy kalendar na 1890 god, 1889; Kavkazskiy kalendar na 1892 god, 1891; Kavkazskiy kalendar na 1893 god, 1882; Kavkazskiy kalendar na 1900 god, 1899; Kavkazskiy kalendar na 1912 god, 1911; Kavkazskiy kalendar na 1917 god, 1916). Bəzi cildlərdə məlumatlara diqqət yetirsək görürük ki, məsələn, 1890 və 1891-ci il cildlərində quberniya, qəza və polis sahələri üzrə əhalinin sayı, çoxluq təşkil edən millət və dini mənsubiyyət üzrə göstərilmişdir; 1892-ci ildə 500 nəfərdən çox əhalisi olan yaşayış məskənlərinin siyahısı, 1900-cü ildə isə bunlara əlavə olaraq əhalinin təbii hərəkəti də qeydə alınmışdır; 1916-cı il cildində isə kənd icmaları üzrə bütün yaşayış məskənlərinin adları sıralanmışdır (Quliyeva, 2025, s. 19-21; Luchinskiy, 2019; Troynickiy, 1904). Məhz bu illərdə məlumatların daha əhatəli şəkildə təqdim olunması imperiyada keçirilən ümumi siyahıyaalma prosesləri ilə bilavasitə bağlıdır.

Bununla belə, mənbənin müəyyən metodoloji məhdudiyyətlərini də nəzərə almaq lazımdır. Statistik məlumatlar hər zaman eyni formada təqdim edilməmiş, illər üzrə struktur fərqləri mövcud olmuşdur: əksər cilddə statistik məlumatlar yalnız quberniya səviyyəsində (qəza və əsas şəhərlər üzrə) verilmişdir. Bundan başqa, inzibati dəyişikliklər məlumatların müqayisəsini çətinləşdirir — 1840-1878-ci illəri əhatə edən inzibati islahatlar ərazi bölgülərini dəyişdirmiş, bu da eyni ərazinin illər üzrə ardıcıl müqayisəsini mürəkkəbləşdirmişdir (Qafarov və Vəliyev, 2025, s. 26-28). Quberniya

idarələrində yerli, xüsusilə əhalinin əksəriyyətini təşkil edən yerli müsəlman məmurların sayının az olması isə toplanmış məlumatların tam obyektivliyinə kölgə salır.

Bütün bu çatışmazlıqlara baxmayaraq, "Qafqaz təqvimi" Azərbaycan tarixşünaslığında hələ tam araşdırılmamış nadir mənbə olaraq qalır. Hazırda Azərbaycan tarixşünaslığında külliyyata istinad edilən mövcud tədqiqatlar əsasən ayrı-ayrı cildlərə müraciətlə məhdudlaşmış, bütöv külliyyatın sistemli təhlili isə aparılmamışdır. Bu tədqiqat həmin boşluğu doldurmağı hədəfləyir.

**Nəticə**

Bu tədqiqat Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müasir Azərbaycan tarix elmi qarşısında müəyyən etdiyi vəzifələri əhatə edir və milli həqiqətlərin beynəlxalq müstəvidə müdafiəsi üçün elmi arqumentlər formalaşdırır. Aparılan tədqiqat və "Qafqaz təqvimi"nin sistemli təhlili göstərir ki, 1845-1917-ci illəri əhatə edən külliyyat Qafqazın, xüsusilə Azərbaycanın tarixi-demoqrafiyası üçün məlumatlarla zəngindir. Mənbənin ardıcıllığı, etnik və dini tərkibə dair verdiyi təfərrüatlı statistik cədvəllər, həmçinin yaşayış məntəqələri üzrə təqdim etdiyi məlumatlar regionun etnodemoqrafik xəritəsini bərpa etməyə imkan verir. Müxtəlif mütəxəssislər tərəfindən hazırlanan statistik materiallar və imperiya dövrünün müxtəlif siyahıyaalma məlumatlarının külliyyatda cəmlənməsi, onuntarixi-demoqrafik mənbə kimi əhəmiyyətini təsdiq edir. Bununla belə, inzibati islahatlar, paytaxt dəyişiklikləri və dövrün siyasi konyukturasından irəli gələn bəzi metodoloji məhdudiyyətlər təhlil zamanı tənqidi yanaşmanın zəruriliyini ortaya qoyur. Bütün bunlara rəğmən, tarixi-demoqrafik mənbələrin müqayisəli təhlili yalnız keçmişin faktoloji bərpası ilə məhdudlaşmır. Belə ki, XIX əsrdə Rusiya imperiyası, 1920-ci ildə Sovet Rusiyası tərəfindən işğal edilən tarixi Azərbaycan torpaqlarının bir hissəsi müasir sərhədlərimizdən kənarda qalmışdır. Külliyyatın materialları bu ərazilərin Azərbaycana aid olmasını, həmçinin Ermənistanın ərazi iddialarının əsassız olmasını sübut edir.

**Ədəbiyyat**


1. Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağı keçirilib. (2025, 3 noyabr). *President.az*. https://president.az/az/articles/view/70464
2. Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası. (1999). *Azərbaycan Respublikasının Qanunvericilik Toplusu*, (12), 2921–2927.
3. Haqverdi, Ü. (2026). Əhalinin siyahıyaalınması problemi: tarix və müasirlik. *Tarix və onun problemləri*, (1), 265–272.
4. Kavkazskiy kalendar na 1846 god. (1845). *Zakavkazskim Kraem*.
5. Kavkazskiy kalendar na 1852 god. (1851). *Kancelyarii Namestnika Kavkazskogo*.
6. Kavkazskiy kalendar na 1855 god. (1854). *Kancelyarii Namestnika Kavkazskogo*.
7. Kavkazskiy kalendar na 1865 god. (1864). *Kancelyarii Namestnika Kavkazskogo*.
8. Kavkazskiy kalendar na 1886 god. (1885). *Glavnonachal'stvuyushchego grazhdanskoyu chast'yu na Kavkaze*.
9. Kavkazskiy kalendar na 1890 god. (1889). *Glavnonachal'stvuyushchego grazhdanskoyu chast'yu na Kavkaze*.
10. Kavkazskiy kalendar' na 1892 god. (1891). *Kancel. Glavnonachal'stvuyushchego grazhdanskoyu chast'yu na Kavkaze namestnika Kavkazskogo i Ya. K. Man'stova*.
11. Kavkazskiy kalendar na 1893 god. (1892). *Kancel. Glavnonachal'stv. Grazhd. ch. na Kavkaze*.
12. Kavkazskiy kalendar na 1900 god. (1899). *M. Sharadze i K°*.
13. Kavkazskiy kalendar na 1912 god. (1911). *Kancelyarii namestnika E. I. V. na Kavkaze*.
14. Kavkazskiy kalendar na 1917 god. (1916). *Kancelyarii namestnika E. I. V. na Kavkaze*.

15. Luchinskiy, Yu. V. (2019). “Kavkazskiy kalendar” i redakcionnaya deyatel’nost’ N. I. Lorana. In O. I. Lepilkina (Ed.), *Mediachteniya SKFU: Materialy Tret’ey Mezhdunarodnoy nauchno-prakticheskoy konferencii*, Servisshkola, 64–66.
16. Qafarov, V., Vəliyev, X. R. (2025). *Azərbaycan ərazisi (1918–2025)*. Hərbi nəşriyyat.
17. Quliyeva, S. (2025). XIX əsrdə Azərbaycanın əsas yaşayış məskənləri (“Qafqaz təqvimi” əsasında). *“Dünya azərbaycanlıları: tarix və müasirlik” mövzusunda V Beynəlxalq elmi konfransın tezisləri* (27–28 fevral 2025). BDU Nəşr Evi.
18. Shukyurov, K. K. (2023). Demograficheskie processy v Azerbaydzhane: istoriograficheskie aspekty. In *Demograficheskie faktory adaptacii naseleniya k global’nym social’no-ekonomicheskim vyzovam* (pp. 163–168). Institut ekonomiki UrO RAN.
19. Svod statisticheskih dannyh o naselenii Zakavkazskago kraya, izvlechennyh iz posemeynyh spiskov 1886 g. (1893). I. Martirosiyanca.
20. Şükürov, K. (2001). *Demoqrafiya. Ensiklopedik lüğət. Üç cilddə. I cild. Əhali haqqında elm. Hissə 1. Əhali haqqında elmin tarixi*. Bakı Universiteti nəşriyyatı.
21. Troynickiy, N. A. (Ed.). (1904). *Pervaya Vseobshchaya perepis’ naseleniya Rossiyskoy imperii. 1897 g. Elizavetpol’skaya guberniya*. Izdanie Central’nogo statisticheskogo komiteta MVD. https://www.prlib.ru/item/436598